

# BƏNZƏRSİZLİK

***Sabir RÜSTƏMOĞLU***
*ADPU-nun Ağcabədi filialının dosenti, AYB və AJB-nin üzvü*

**(əvvəli ötən saylarımızda)**

**Geriyə qayıtmağa "yol", "boynuna salmağa qol", xeyir-şərinə, şad gününə, iz-cığırına, geri dönərkən el tapmayanda, insan insanlıqdan uzaq olur, İlahi! Dərd başdan tökülərək kürəkdən axıb gedir. İnsan qabıq kimi ayaqdan soyulur. Ata-anasız və qardaş-bacısız yaşamaq olar, ancaq Vətənsiz yaşamaq çətindir. Adam yurddan didərgin düşüncə ölməyi vacibdir. Hamını - yazığı da, zalımı da İlahi Sən yaratmısan. Yanan ocağ su ilə qovuşdu. Mənlik ayaq altına atıldı, var-dövlət dağıldı. Başını bizə tərəf döndər, İlahi! Axı bizi də Sən yaratmısan. Dörd tərəfi dərdli olan bu "didərgin" və "qaçqın" millət hara getdiyini və kimə inandığını bilmir. Bilmir işıq gələn və ya it hürən tərəfə getsin. Millət irəli getsə, "çıraq sönər" və "it hürməz". Qanı damara baxıb alarlar, bəşər bizim dərdi çəkə bilməz. Ey İlahi, qarışqanında çəkdiyi və kəhər atın da götürdüyü yük var.**

Lakin bu yükü heç bir at çəkə bilməz. Səhər gecənin şehində yuyunsa da, onun günahını səhər üstünə götürməz. Sən məni dünyaya gətirsən də, mən sənə layiqli oğul ola bilmədim. Günah duası olduğuma görə qəbul olunmadım. Nə yurd sala bilirəm, nə də ocaq daşı olmağa qadirəm. Məni oğul yaratsan da, sənə oğul olmadım. Ona görə də, İlahi, məni daşa, qışa, böcəyə, qurda, yurda və nəhayət, Uruda döndər. O yurdun torpağına, daşına, suyuna, ruhuna qaytar. Oraya əhdim və böyük borcum var. İlahi, mənim günahım çoxdu, məni bağışla. Tövbə etməyə hazır olan peşiman övladınam, mənim günahlarımdan keç. Başqasının qılığına girib həmdərd olmuşam və özümə xain kəsilmişəm. O tərəf, bu tərəfə fırlanaraq "baş girələmişəm". Başqalarının əlində oyuncağa çevrilmişəm. Ona görə də, İlahi, məni əfv et. Sönmüş ocağımı yandırmağa mənə kömək et. Torpağıma qayıda bilməsəm, əsir torpağımı azad etməsəm, məni məhv et. İlahi günahını öz qanı ilə yumağa çalışan günahkar bəndəni bağışla.

**Qayıda bilməsəm, bu məğlub başı,**
**Bu əsir torpağı, bu yesir daşı**
**Bir qəfil tufanla ayağa qaldır.**
**Bir qəfil tufanla məhv et, İlahi!**
**Məhv et!**
**Günahını öz qanı ilə**
**Yuyan günahkarı əfv et, İlahi**

"Məni pis adından qoru, ay Allah!" şeirində Musa Urud Tanrıya müraciət edərək bütün bəd əməllərdən onu hifz etməsini istəyir. Ey Allah, məni pis ad, pis adam və pis addımdan hifz et. Yüz gözəl iş tutsam da, bir bəd əməl bütün yaxşılıqları məhv edir. Sən qoyduğun qayda işləmir. Elə divan var ki, ədalətlə heç bir əlaqəsi yoxdur. İndi mənim zamanım keçib və məni "inadımdan", ey Allah, hifz et. İndi özündən razı, lovğa, heç kəsi bəyənməyən, "gözü qırqıların" və "zatı qırıqların" dövranıdır. Artıq mənim vaxtım keçib. "Başçı" hesabına "baş" qoruyanlardan, başqa otursa da, başı olmayanlardan məni hifz et, ey Allah! Bəzi qocalar baş kəsir, "diş çıxarırlar". Ancaq, ey Allah, uşaqların dişi yoxdur. Kiminsə başın qoltuğunda gizlədənlər, kiminsə başı qoltuq altındadı, ey Allah! Bu millətin ölçüsüz səbri var, ancaq sənin səbrindən "uzun cəzan var, Allah!" Sapı iynə ulduzu boyda yerdən keçirirlər və iynə sapın arxasınca gedir. Bu rəngi qara millətin özü kimi üzü də qaradır. Sabun almağa isə növbə çatmır.

"Sümük" və "yem" üstə dava gedir. Bu davadan, ey Allah, məni "yüz ağac" aralı et. Mənim "qır tiyanından və "his bacasından" qurtulmağıma köməklik göstər və burada məni "üzüağ" et, ey Allah!"

**Sümük davasından, yem davasından,**
**Yüz ağac uzaq et məni, ay Allah.**
**Bu qır tiyanından, his bacasından**
**Qoy çıxım, üzüağ et məni, ay Allah**

"Gəl gedək dağlara" şeirində şair dağların füsunkarlığından, əzəmətindən, incə zövqlə danışır. Şəhər bizə bir gün ağlamadı. Biz ona "bal" desək də, o bizə "zəhər" göstərdi. Hər səhər dağlar bizə əl edir. Ona görə də gəl gözəl dağlara gedək. Çiskin dağın örpəyi və duman isə şalıdır. Dağlarda bitən çiçəklər yaraların məlhəmi və bulaqların suyu isə "bal" kimidir. Onlar təmiz, duru, saf və halaldır. Ona görə də gəl gözəl dağlara gedək. "Şərbəti gürşada", dolusu noğula, ağ daşları ağ balığa və yamacları isə xalıya bənzəyir. "Şeytan", "ara vuran", "söz gəzdirən" və "könül qıran" burada yoxdur. Bizi tale, qismət və bəxt dağlara çəkib aparır. Ona görə də gəl dağlara gedək. Qışı şəhərdə olaq, yazda asandı. Yaş odun olanda köz çətin düşər. Dikə çıxmaq çətindi, düzdə getmək asan. Ona görə də gəl gözəl dağlara gedək. Dağlar "nəfsi az", "tamahı tox" və günahı olmayandır. Dağlar hündür olduqları üçün Tanrıya daha yaxındır. Ona görə də gəl dağlara gedək.

**Nəfsi az, tamahı toxundu dağlar,**
**Məbəddi - günahı yoxundu dağlar.**
**Tanrı dərgahına yaxındı dağlar**
**Gəl gedək dağlara, dağlar gözəldi!**

Musa Urud özünü yarğan qırağında tənha qalan ağaca bənzədir. O öz poetik fikirlərini "Mən bir tənha ağacam" şeirində canlandırmışdır. Mən yarğan kənarında, "gün altında", "yel qabağında", "payız çiskinində" və "qışın sazağında" qalan bir ağacam. Mən üstündə heç nə olmayan yanında ağac kölgəsi və yarpağında xışıltı olmayan ağaca bənzəyirəm. Nə barımı daşlayan, nə də dağıdan var. Meyvəsini quzğunlar daşıyan tək bir ağacam. Tək qalmış bir ağacın yarğanının kənarındəyam. Mən nə "tufanlara", nə də "daşqınlara" qarşı çıxmışam. Tək bir ağacam göz önündə, yarğanın yaxınlığında ömür sürmüşəm. Yarğanın kənarında tək qalmış ağac kimiyəm. Bəlkə uçurumdan yıxılanlardan biri budağımdan tutacaq məni balta ilə kəsməyə gələnlərdən öncə.



**Mən bir tənha ağacam**
**yarğanın qırağında.**
**Bəlkə bir uçurumdan yıxılan**
**budağımdan yapışacaq.**
**Əli baltalı gələn**
**odunçudan qabaq.**

Musa Urud "Əsgər ol" şeirində hər bir Azərbaycan oğlunun əsgər olmasını istəyir və söyləyir ki, Vətəni yağı düşməndən qorumaq üçün hər bir Vətən oğlu əsgər olmalıdır. Vətən döyüşkən, cəsur oğulları ilə fəxr etməlidir. Belə olmasa, yağı düşmən hər an bizi yağmalayar. İgid əsgərlərimiz yağıları məhv etməlidir. Azad Vətən, sakit, əmin-amanlıq içərisində tərəqqi edər. Əsgərlərimiz Vətənimizin vuran əli və döyünən ürəyidir. "Əsgər ol" çağırışı hər bir Vətən övladına şairin ismarış səsidir. Torpağa və ay-ulduzlu bayrağına and iç. Qisas vaxtı çatıb. Vətən oğlu, ayağa dur və əsgər kimi sırada dayan. Belə döyüş Allahın bizə verdiyi əmr və haqq savaşıdır. Mən səni geri çağırsam da, qayıtma. Düşmən kişi deyil, sən kişisən, əsl əsgər olmalısan. Sıxanda daş-torpağından qan çıxacaq. Kəfənsiz döyüşdə şəhid olanlara "Üç rəngli bayrağından" "başdaşı" düzəlt və sən də onlar kimi əsgər olmağa çalış. İş çox və yol uzaq. Çətin vaxt, çətin andı. Tanrı səni hifz eləsin. Qarabağ öndədi, çalış Turan övladına bənzəyən əsgər olasan. Sonuncu dəfə əzmkarlıqla döyüş və Şuşanı yağı düşməndən azad et və Vətəni işıqlı günə çıxart. Öz əcəli ilə Şuşada ölmək günah sayılır. Əgər Şuşa kimi cənnətdə ölmək istəyirsənsə, əsgər olmağa çalış. Qılıncını siyir, döyüşə gir və zəfər çal ki, qan yerdə qalmasın. Sənə göydə Allah kömək edəcək və yerdə isə komandirin Heydər olacaq. Sən basılmaz Azərbaycan əsgəri olmalısan.

**Sıyır qılıncı qından,**
**Yerdə qalmasın bu qan.**
**Göydə Allah pənahdı,**
**Yerdə Heydər - komandan,**
**Azərbaycan, əsgər ol!**

"Bu kənd" şeirində şair sanki Urud kəndi timsalında düşmən taptağı altında qoyub qaçdığımız minlərlə kəndlərimizin faciəli günlərini xatırladır. Qarğışa bənzəyən qəzaya düçar olduq. Bu hadisə vaxtında gəlməyən qışa oxşadı. Kənd sakinləri südü quruyan döş kimi yoxa çıxdı. Dərddən yüklənsək də ölməyərək gəlib çıxdıq. Kəndi yuxulu qoyub qaçdıq. İndi onu yuxuda görürük. İtəni itkisiz geri almaq olmaz. Nə qədər "Vətən" deyib çağırsan da. Bu kənd ömrümüzdən ötüb gedən yolçusu olmayan yolu xatırladır.

**Qadasız qayıtmaz itən,**
**Yüz sızılda "Vətən", "Vətən",**
**Ömrümüzdən keçib gedən**
**Bir yolçusuz yoldu bu kənd!**

Musa Urud "Bu görünən dağın dalı" şeirində düşmən taptağı altında qalan və uzaqdan görünən dağın arxasında yerləşən kəndlərini xatırladır və kəndləri üçün necə kədərləndiyini göz önünə gətirir. Doğulub boya-başa çatdığı kəndinin düşmən əlində olması şairi daxilən sarsıdır və kədərləndirir. Dağın arxasındakı mənim doğulduğum kənddir. İtgi və ayrılığın belə asan olduğunu anlamazdım. Dağın arxasında olan kəndi almaq üçün ölüm-dirim savaşına atılmalıyıq. Dağa qalxıb, kəndi görmək sanki Tanrını görməyə bərabərdir. Kənd dağ kimi dözümlü olub yolumu gözləyir. Mən geciksəm, o özü dağın arxasından aşıb yanıma gələcək.

**Hələ ki, gözlər yolumu**
**Söykəyib dağ dözümünə.**
**Bir az da geciksəm, özü**
**Yeriyib gələr üstümə,**
**Bu görünən dağın dalı**

"İlahi, bu ömür haçan qurtarar?" şeirində müəllif İlahiyə üz tutaraq, heç bir şeyə yaramayan gərəksiz bir ömrün bitməsini arzulayır. Belə bir ömrün yaşamasından yaşamamasını məsləhət bilir. Dünyanın "Qış və yayından", minnətlik sovqatından, bərabər "oyunundan" yoruldum deyir. Belə bir üzüntülü ömrün nə vaxt sona yetəcəyini İlahidən istəyir. "Haqq" deməkdən dilimdə "qaysaq", "yaxşıdan vurduğum calaq", "səhra" açılmadı və örtülü qaldı. Bu ömür və zaman sona yetəcəyini İlahidən diləyir. Elə dərd var, nə sözə, nə də misraya sığır. Heç ata və qardaş da səsinə səs vermir. Ağlı olanlar bu dünyaya gəlmirlər. Belə bir ömrə İlahi son qoysa yaxşı olar. Gözüm yollara baxmaqdan saraldı. Külək və toz kəsmədi. Nə qədər haray saldımsa, köməyimə çatan olmadı. İlahidən arzu edirik bu ömrü sona yetir. Bulağın suyu qurudu və bağım soldu. Ayaq kəsildi, göz yığıldı. El yurd-yuvasından didərgin düşüb dağıldı. İlahidən arzu edirik belə bir ömrü sona çatdır.

**Bulaq da qurudu, bağ da sovuldu,**
**Ayaq da kəsildi, göz də yığıldı.**
**El də perik düşdü, yurd da dağıldı,**
**İlahi, bu ömür haçan qurtarar?**

Müəllif "Bilmədim" şeirində Vətəninin, torpağının və elinin başına gələn müsibətlərin necə baş verdiyindən xəbərsiz olduğunu söyləyir. Bu fəlakətlərin yaranma səbəbləri şair üçün müəmmalı olduğunu poeziya dili ilə canlandırır. Vətən və el hissələrə bölündü. Belə halı görən ömür ağlar günə qalsın. Allaha üz tutaraq yönüm dağlara tərəf gedərkən bilmədim təpə aşdım, yoxsa yol. Dürat və Qırat düşman əlinə keçdi. Yurd talan və el qarət edildi. Qara tellərə fələk əl vurarkən bilmədim onu daradı, yoxsa yoldu. Cığır itdi və yol bağlandı. Gözdə yaş göynədi və dildə bayatı səsləndi. Qayada kəkotunun, kol dibində bənövşənin saralıb-solduğun bilmədim. Dağlar mənim qəsrim, qayalar isə taxtımdı. Bulanıq sellərə qarışıb getdim. Mələk cildində olan şeytanın əlindən tutsam da, şeytanın olduğunu anlamadım. Üzümü adımla örtdüm. Arzumca ömrümü kəmənd "haqq sözü" əyri ilə birləşdirdim. Ona görə də daxilimdə ölən şairdən xəbər tutmadım.

**Adımı üzümə rübənd eylədim,**
**Ömrümü arzuma kəmənd eylədim.**
**Haqq sözü cır işə peyvənd eylədim**
**İçimdə bir şair öldü, bilmədim**

**"Dərdimi" şeirində Musa Urud görkəmli alim, vətənpərvər insan olan Həsən Mirzəyə müraciət edərək Vətən həsrətindən qovrulduğunu ürək yanğısı ilə ona söyləyir. Dərdinin çox böyük olduğunu dilə gətirir. Həsən Mirzə, icazə ver dərdimi saza deyim. Telli kimi aşıq lazımdır ki, mənim dərdimi sazın tellərində canlandırsın. Sözüm qan və gözüm yaşlıdır. Yurdum dağ və daşlıqdır. Dünya daş ürəkli qurd kimidi. O quzunun dərdin başa düşməz. Zəngəzurun qarı və çiçəkləri sarı və ya bəyaz olur. Göyçənin, Pənbəkin və Dərələyəzin həsrətin çəkməkdən dərdim yüz dəfə artıb. Ağappaq Ağbaba Ağrı dağının dərdini çəkir. Bu dərdi dağdaş tutmaz.**

**(ardı gələn sayımızda)**